**UOT: 624.131.1**

**ƏZİZOV A.M., VƏLİYEVA A.R.**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TULLANTILARIN DİNAMİKASI VƏ İDARƏ EDİLMƏSİ HAQQINDA

*Tullantıların idarə olunması sahəsində* əsas məsələlərdən biri onların çeşidlənməsi ilə bağlıdır. Ölkəmizdə tullantıların çeşidlənməsi üçün müəyyən tədbirlər həyata keçirilsə də Bakı şəhəri də daxil olmaqla ölkənin digər şəhərlərində bu istiqamətdə aparılan işlər kifayət deyil. Bəzi hallarda isə tullantıların uzun müddət daşınmaması həmin ərazidə yaşayan əhalinin sağlamlığı üçün böyük problemlər yaradır.

Dünyanın bütün ölkələrində, o cümlədən Azərbaycan Respublikasında tullantılar əmələ gəlir. Hər il Azərbaycanda yaranan istehsalat və məişət tullantılarından cəmisi təxminən 20 % -ə qədəri təkrar emal edilir. Ölkə ərazisində isə 1,2 milyon tondan çox tullantılar istifadəsiz qalır və bu tullantıların bəziləri müxtəlif xəstəliklərin və xüsusilə kanserogen xəstəliklərin yaranmasına səbəb olur. Digər ölkələrdə də tullantıların çeşidlənməsi və emalı qənaətbəxş deyil. Məsələn, Rusiya Federasiyasında il ərzində 3,8 milyard ton bütün növdən olan tullantı əmələ gəlir. Bu tullantıların həcmi 63 milyon ton/il təşkil edir. Yəni adam başına 445 kq/il tullantı düşür. Həmin tullantıların tərkibi kağız və karton - 35 %; qida tullantıları - 41 %; plastmas - 3 %; şüşə - 8 %; metallar - 4 %; parça və başqaları - 9 %. Rusiya Federasiyasında tullantıların cəmisi təxminən 30 %-ə qədəri emal edilir. Rusiya Federasiyasında zibil əsasən zibilxanalara atılır, onların da sayi 11 mindir. Bu zibilxanalarda 82 milyard tondan çox tullantı basdırılıb.

ABŞ-da müxtəlif sahələr üzrə il ərzində 230 milyon tona yaxın (adam başına 760 kq/il) bərk məişət tullantıları əmələ gəlir ki, bunun da 30 %-i emal edilib kompost hazırlanır. Zibilin 15 %-i yandırılır, 55 %-i basdırılır. Bərk məişət tullantıların tərkibi belədir: kağız və karton - 37 %; qida tullantıları - 24 %; plastmas - 11 %; şüşə - 5 %; metallar - 8 %; tekstil və başqaları 15-%.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2011-ci il ərzində Bakı şəhərində 4583 min m3 bərk məişət tullantısı əmələ gəlmişdi ki, bu da təqribən 1 milyon tondan çox tullantı deməkdir. Həmin mərkəzin məlumatına görə 2017-ci ildə isə il ərzində Azərbaycan Respublikası ərazisində ümumilikdə 6,6 milyon m3 məişət tullantısı əmələ gəlmiş və 2017-ci ilin sonunda Azərbaycan Respublikasında iqtisadiyyatın müxtəlif sahələri üzrə müəssisələrdə ümumilikdə 1,8 milyon ton təhlükəli tullantı mövcud olmuşdur.

Azərbaycan Respublikasında ən çox tullantı Abşeron yarımadasında müşahidə olunur.

Abşeron yarımadasında sahəsi 232,5 ha olan 5 məişət tullantısı poliqonu vardır. Mövcud 128 zibilxananın sahəsi isə 448,6 hektardır. Poliqon və zibilxanaların fəaliyyəti bütövlükdə ekoloji norma və standartlara cavab vermir.

Uzun illərdir ki, toplanan tullantılar faktiki olaraq şəhərin ekoloji vəziyyətinə böyük zərbə vurub. Əvvəllər Balaxanıda tullantılar qeyri-düzgün şəkildə yandırılaraq vəziyyəti daha da gərginləşdirirdi.

Azərbaycan Respublikası prezidentinin 2008-ci il 6 avqust tarixli "Bakı məişət tullantıları ilə bağll idarəetmənin təkmilləşdirilməsi haqqında" sərəncamına əsasən, ekoloji durumun sağlamlaşdırılması məqsədi ilə ardıcıl və səmərəli tədbirlərin həyata keçirilməsinə başlandı. Bu işdə ilk addım Balaxanı Şəhər Tullantılarının Zərərsizləşdirilməsi Poliqonunda ekoloji vəziyyətin sağlamlaşdırılması və poliqonda tullantıların zərərsizləşdirilməsi sisteminin düz-

gün şəkildə qurulması olub. Beləliklə, yanğının qarşısı alınıb, tullantılar basdırıldıqdan sonra torpaqlama və hamarlama işləri yerinə yetirilib, mühafizə sistemi qurulub, tullantıların qəbulu meydançası, qeydiyyat məntəqəsi yaradılıb.

Görülmüş işlər nəticəsində poliqonun ətraf mühitə mənfi təsiri xeyli azalıb. "Bərk məişət tullantılarının vahid idarəçiliyi layihəsi" çərçivəsində 20 illik fəaliyyətdən sonra poliqonun hissə-hissə bağlanması, ərazidə yaşıllıqlar salınması və gələcəkdə istirahət məkanı kimi istifadə edilməsi planlaşdırılıb.

Məişət tullantılarının idarə edilməsi probleminin həllində həyata keçirilən çoxsahəli tədbirlərdən biri Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər planına uyğun olaraq Balaxanı ərazisində ildə 500 min ton məişət tullantısını emal edən Məişət Tullantılarının Yandırılması zavodu və ildə 200 min ton məişət Tullantısını Çeşidləmə zavodu tikilmiş və istismara verilməsidir.

Bakı şəhərində və qəsəbələrdə əmələ gələn bərk məişət tullantılarının qeyri -rəsmi tullantı sahələrinə atılmasının qarşısının alınması məqsədi ilə Xəzər, Qaradağ və Suraxanı rayonlarında yükləmə-boşaltma məntəqələrinin qurulması layihəsinin reallaşdırılması nəzərdə tutulub. Yükləmə-boşaltma məntəqələrinin yaradılmasında əsas məqsəd Bakı şəhərinin müxtəlif rayonlarından tullantıların Balaxanı poliqonuna daşınmasında yaranan çətinliklərin aradan qaldırılmasıdır. Yükləmə-boşaltma məntəqələri istismara verildikdən sonra məişət tullantılarının zərərsizləşdirməsi obyektlərinə çatdırılma məsələləri öz həllini tapacaq. Bu məntəqələrin yaradılması həmçinin nəqliyyat xərclərinin azaldılması və yanacağa qənaət, ətraf mühitə atılan zərərli qazların miqdarının azaldılması deməkdir. Son illərdə tullantıların idarə olunması ilə əlaqədar bir sıra qanun və normativ hüquqi aktlar qəbul edilmişdir.

Ümumiyyətlə ekoloji tarazlığın saxlanılması və ətraf mühitin mühafizəsi sahəsində müsbət nəticələr əldə edilməsi, o cümlədən tullantıların idarə və emal olunması problemini həll etmək üçün müasir tələblərə uyğun qanunvericilik bazası tələb olunur.

Son illərdə tullantıların idarə olunması ilə bağlı Azərbaycan Respublikasında mühüm əhəmiyyətə malik olan bir sıra qanun və normativ hüquqi aktlar qəbul edilmişdir.

Qəbul olunmuş qanunların və hüquqi aktların hər birinin tədbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları imzalanmış, tullantıların idarə olunması ilə məşğul olan aidiyyəti dövlət orqanlarının səlahiyyətləri və həmin normativ hüquqi aktların icra mexanizmi müəyyənləşdirilmişdir.

Mövcud qanunlara müvafiq olaraq əlaqədar təşkilatlar tərəfindən bir sıra normativ sənədlər təsdiq edilmişdir.

2014-2018-ci illərdə Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsi və mövcud normativ hüquqi aktların ölkənin qoşulduğu beynəlxalq müqavilələrin müddəalarına, həmçinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması, ətraf mühitə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra yeni qanunlar qəbul olunmuş, mövcud qanunlarda isə əlavə dəyişikliklər edilmişdir. Buna əsasən atmosfer havası, su ehtiyyatları, məişət və istehsalat tullantıları, su bioresursları, biomüxtəlifliyin qorunması sahələrini əhatə etmişdir .

Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinə dair Milli Strategiyanın hazırlanması və məişət tullantıları sahəsində vahid idarəçiliyi sisteminin tətbiqi üçün ölkə ərazisindəki vəziyyət təhlil edilmiş, şəhər və rayonlarda bərk məişət tullantılarının davamlı idarə və emal edilməsinə dair daşıma,

toplama və zərərsizləşdirməsi sisteminin qurulması üçün regional sanitariya poliqonundan və ötürücü məntəqələrdən ibarət şəbəkənin yaradılması ilə bağlı təkliflər, həmçinin mərhələli hüquqi, inzibati, maliyyə, institusional və texnoloji islahatlara dair tövsiyələr hazırlanmışdır.

Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi üzrə fəaliyyət planında aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub:

1. Bərk məişət tullantılarının idarə edilməsi sahəsində institusional tədbirlər.
2. Bərk məişət tullantılarının idarə edilməsi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi, ictimai maarifləndirmə tədbirləri.
3. Bərk məişət tullantılarının idarə edilməsi üzrə infrastruktur təminatının yaxşılaşdırılması.
4. Bərk məişət tullantılarının idarə edilməsinə dövlət dəstəyi tədbirləri.

Milli Strategiyanın planının həyata keçirilməsi üçün icra müddətləri və icrasına məsul dövlət orqan və təşkilatları müəyyən edilmişdir. Həmin orqan və təşkilatları bunlardır: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (İN); Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN); Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (SN); Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (E və TN); Tarif (Qiymət) Şurası (T(Q)Ş); Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH); yerli icra hakimiyyəti orqanları (YİHO).

Mövcud problemlərin həll edilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən beynəlxalq təşkilatlarla, donor ölkələrlə əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Belə ki, BMT-nin İnkişaf, Ətraf Mühit, Sənayenin İnkişafı programları, NATO, Qlobal Ekoloji Fond, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı, İqtisadi Əməkdaşlıq təşkilatı, Dünya Bankı, Asiya bankı, Ümumdünya Vəhşi Təbiət fondu və s. təşkilatlarla əməkdaşlıq davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2005-ci il tarixli 74 saylı Qərarı ilə təsdiq edilmiş “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi qaydalarında” məişət tullantılarının idarə olunması istiqamətləri, habelə, idarə olunmaya cavabdeh qurumlar, təşkilatlar müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında” 6 avqust 2008-ci il tarixli Sərəncamına əsasən şəhər ərazisində əmələ gələn məişət tullantılarının yığılması və daşınması Bakı şəhər İcra Hakimiyyətinin, qəbulu və zərərsizləşdirilməsi isə “Təmiz şəhər” ASC-nin səlahiyyətindədir.

Tullantılarının idarə olunması və emalı sisteminin təkmilləşdirilməsi məqsədi ilə ölkəmizdə həyata keçirilən tədbirlər ümumilikdə tullantıların idarə və emal olunma sisteminin inkişafının təməlini qoysa da hazırda tullantıların idarə edilməsi və emalı istiqamətində çoxlu həll edilməmiş məsələlər durur.

Baxmayaraq ki, ölkəmizdə tullantıların idarə olunması sahəsində müasir tələblərə cavab verən normativ-hüquqi aktlar təsdiq edilsə də tullantıların çeşidlənməsi qənaətbəxş həyata keçirilmir. Buna görə də külli miqdarda qiymətli materiallar itir. Ayrı-ayrı ölkələrdə bu məqsədlə müxtəlif tipli konteynerlər qoyulur. Bizim ölkəmizdə də bu istiqamətdə işlər aparılması əsas məsələlərdən biri olmalıdır. Zibilin çeşidlənməsi prosesinə əhalinin də iştirakını cəlb etməklə onu konteyner meydançalarında da həyata keçirmək olar. Bu zaman tullantıların konteyner meydançalarında qoyulmuş və üzərində materialları xarakterizə edən simvollar olan və xüsusi rənglərlə rənglənmiş konteynerlərə boşaltmaq olar.

Zibilin çeşidlənməsi üçün nəzərdə tutulan konteynerlərin rənglənməsinin, simvollar, işarələrlə təmin edilməsinin əhəmiyyəti ondan ibarətdir ki, çeşidlənmə üçün nəzərdə tutulan belə konteynerlər və onlarda uyğun tullantıların toplanması sonrakı utilizasiya və emal proseslərini asanlaşdırır və belə prosesləri iqtisadi və idarəçilik baxımından səmərəli edir. Zibilin ayrılması və ya çeşidlənməsinin mühüm iqtisadi-sosial və ekoloji əhəmiyyəti vardır.

Zibilin ayrılması və ya çeşidlənməsinin mühüm iqtisadi-sosial və ekoloji əhəmiyyəti vardır:

- çeşidləmə tullantıları ikinci dəfə təkrar istifadə etməyə imkan verir. Bundan əlavə belə çeşidləmə onun ikinci emalını ucuzlaşdırır;
- zibilin ayrılması və emalına çəkilən xərclərin kifayət qədər yüksək olmasına baxmayaraq ikinci emala cəlb edilən xammaldan alınan məhsulun hesabına böyük gəlir əldə etmək olar;
- nəzərdə tutulan iqtisadi effekti almaq mümkün olmadıqda belə ətraf mühitin keyfiyyətinə müsbət təsir yaranır. Hava təmizlənir, suyun keyfiyyəti yaxşılaşır, çirklənmənin ümumi həcmi azalır;
- zibilin ayrılması prosesi ümumilikdə vətəndaşların məsuliyyət hissinin tərbiyəsinə müsbət təsir edir;
- zibilin ayrılması kimi fəaliyyət sahəsi yeni iş yerlərinin açılmasını təmin edir.

## ƏDƏBİYYAT


1. A.M. Əzizov, L.H. Məmmədova. Tullantıların inteqrasiyalı idarə olunması. Azərbaycan Memarlıq və İnşaat Universiteti. – Bakı, AzMİU "Nəşriyyat-Poliqrafiya Mərkəzi", 2021, 227 səh.
2. Əzizov A.M., Xəlilova A.Ə Tullantıların emalı sistemi. Azərbaycan Memarlıq və İnşaat Universiteti. – Bakı, AzMİU "Nəşriyyat-Poliqrafiya Mərkəzi", 2022, 223 səh.
3. Əzizov A.M. Ekologiya. Bakı, AZMİU, Təsərrüfat hesablı mətbəə, 2007.
4. Əzizov A.M., Ocaqov H. O. Tədbiqi Ekologiyanın əsasları. Bakı, AZMİU, Təsərrüfat hesablı mətbəə, 2010.
5. Əzizov A.M., Əzizova N.Ə. Ekoloji böhran nəticələrinin aradan qaldırılması. Təsərrüfat hesablı mətbəə, 2010.
6. Əzizov A.M. Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırılması. Bakı: "Təhsil" NPM, 2012, 212 s.


## XÜLASƏ


Məqalədə tullantıların idarə olunması, emal sistemi, çeşidlənməsi haqqında məlumatlar verilmişdir. Tullantıların çeşidlənməsi problemlərində çatışmayan cəhətlərlə yanaşı, ölkəmizdə tullantıların idarə olunması problemlərinin normativ-hüquqi bazasının yaradılması və. Çeşidlənmə sahəsində problemlər öz əksini tapmışdır.



***Açar sözlər:*** *Tullantılar, tullantıların dinamikası, yükləmə-boşaltma məntəqələri, tullantıların çeşidlənməsi, tullantıların daşınması.*


## SUMMARY


The article provides information on waste management, processing system, and sorting. In addition to the missing aspects in the problem of waste sorting, the problems in the field of sorting have been reflected in the creation of the normative and legal basis of waste management problems in our country.



***Key words:*** *Waste, Waste Dynamics, Loading and Unloading Points, Waste Sorting, Waste Transportation.*

*Məqaləyə AzMİU- nun*
*"Ekologiya" kafedrasının dosenti,*
*a.e.f.d. A.Ə. Xəlilova rəy vermişdir.*